Elm .- 2026.- 6 fevral (№ 5).- S.8.

# Şərqşünaslıq İnstitutunda Sadıq bəy Ağabəyzadəyə həsr olunan beynəlxalq elmi konfrans keçiriləcək

**Martın 16-17-də AMEA-nın akademik Ziya Bünyadov adına Şərqşünaslıq İnstitutunda Azərbaycanın tanınmış hərbi, siyasi və dövlət xadimi, beynəlxalq səviyyədə nüfuzlu şərqşünas alim Sadıq bəy Ağabəyzadənin 160 illik yubileyinə həsr olunmuş "Sadıq bəy Ağabəyzadə - XX əsr Şərqşünaslıq elminin görkəmli nümayəndəsi kimi" adlı beynəlxalq elmi konfrans keçiriləcək.**

Konfrans çərçivəsində Sadıq bəy Ağabəyzadənin sənədlərindən ibarət sərgi təşkil olunacaq.

I Dünya müharibəsinin iştirakçısı, general-mayor, Azərbaycan Cümhuriyyəti dövrü tanınmış dövlət xadimi Sadıq bəy Ağabəyzadə (1865-1944) eyni zamanda görkəmli şərqşünas alim - ərəb, fars, türk dilləri üzrə mütəxəssis, Polşa şərqşünaslıq elmində xüsusi yeri olan Lvov elmi məktəbinin yaradıcılarından biri kimi şöhrət qazanmışdır.

Sadıq bəy Ağabəyzadənin 160 illik yubileyinə həsr olunmuş konfransın təşkilatçıları AMEA akad. Z.Bünyadov adına Şərqşünaslıq İnstitutu, AMEA Rəyasət Heyəti aparatı Elmi İrs Mərkəzi, Polşa Elmlər Akademiyası, Krakov Yagellon Universitetinin Şərqşünaslıq fakültəsi və Varşava Universitetinin Asiya və Afrika mədəniyyətləri fakültəsinin Azərbaycan Araşdırmaları Mərkəzidir.

Konfransa Sadıq Bəy Ağabəyzadənin həyat və yaradıcılığı ilə bağlı "Sadıq bəy Ağabəyzadənin hərbi xidmət dövrü fəaliyyət sahələri", "Sadıq bəy Ağabəyzadə ADR dövrü Azərbaycanda polis sisteminin qurucusu kimi", "Sadıq bəy Ağabəyzadənin yazılı irsi Azərbaycan siyasi mühacirətinin öyrənilməsində mənbə kimi", "Sadıq bəy Ağabəyzadə şərqşünas alim - türk, ərəb, fars dillərində dərsliklərin, lüğətlərin və digər elmi araşdırmaların müəllifi kimi", eləcə də "Şərqşünaslıq elminin yaranmasını şərtləndirən amillər; Türkologiya; İranşünaslıq; Ərəbşünaslıq", "Hərbi şərqşünaslıq, onun Cənubi Qafqaz və Yaxın Şərq tarixinin öyrənilməsində rolu", "Şərqşünaslıq elmi, onun Mənbəşünaslıq və Mətnşünaslıq sahələri", "Azərbaycan şərqşünaslığı: yaranması, istiqamətləri və inkişaf mərhələləri", "Polşa şərqşünaslıq məktəbi və onun görkəmli simaları", "I Türkoloji qurultay. Bakı 1926. - Şərqşünaslıq elmi yanaşmasında", "Müasir dövrdə Şərq anlayışı, Şərqşünaslıq elminin tədqiqat dairəsi və predmeti", "Şərq və Qərb anlayışları postmodernizm dövründə", "Orientalizm və Oksidentalizm: siyasi təfəkkürdə, mədəniyyətdə və incəsənətdə", "Dinlər arası qarşıdurma və dialoq: toqquşan mövqelər və qarşılıqlı addımlar", "Hərb və sülh: qloballaşmanın alternativ yolları" istiramətlərində məruzə tezisləri qəbul olunur.  Konfransın dili Azərbaycan, türk, ingilis, rus dilləridir.

Konfransa təqdim edilən tezislərin 300-400 söz, Times New Romanla 12 şrift ilə 300-400 söz həcmində olması tələb olunur. Tezislərin göndərilməsi üçün son tarix 15.02.2026-cı ildir. Tezislər konfransagabeyzade160@gmail.com e-poçt ünvanına göndərilməlidir:

Konfransın nəticələrinə əsasən konfrans materialları toplusu nəşr olunacaq.